İPƏK YOLU, No.1, 2025, səh.25-37
https://doi.org/10.30546/SI.2025.1.5.009

# BEYNƏLXALQ İQLİM DƏYİŞİKLİKLƏRİNƏ QARŞI MÜBARİZƏDƏ YENİ ETİKA: ƏDALƏT VƏ QLOBAL TƏRƏFDAŞLIĞA AZƏRBAYCANDAN BAXIŞ

**Əziz Əliyev**

AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı, Azərbaycan
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: azizalibeyli@stm.az azizalibeyli@gmail.com

**Xülasə.** Məqalədə beynəlxalq iqlim siyasətində yeni etik prinsiplər tədqiq olunur. İqlim ədaləti və qlobal tərəfdaşlıq anlayışları, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında resurs bölgüsünün etikliyi vurğulanır. İnkişaf etmiş ölkələrin daha çox maliyyə və texnoloji dəstək göstərməsinin əhəmiyyəti qeyd olunur.

**Açar sözlər:** İqlim ədaləti, qlobal tərəfdaşlıq, resurs bölgüsü, etik məsuliyyət, beynəlxalq iqlim siyasəti.

## NEW ETHICS IN THE FIGHT AGAINST GLOBAL CLIMATE CHANGE: JUSTICE AND GLOBAL PARTNERSHIP FROM AZERBAIJAN'S PERSPECTIVE

**Aziz Aliyev**
*ANAS Institute of Philosophy and Sociology, Baku, Azerbaijan*
*Baku State University, Baku, Azerbaijan*

**Abstract.** The article examines new ethical principles of international climate policy. Particular attention is paid to the concepts of climate justice and global partnership, as well as the ethics of resource allocation between developed and developing countries. The importance of developed countries providing greater financial and technological support is noted.
**Keywords:** Climate justice, global partnership, resource allocation, ethical responsibility, international climate policy.

## НОВАЯ ЭТИКА В БОРЬБЕ С ГЛОБАЛЬНЫМИ ИЗМЕНЕНИЯМИ КЛИМАТА: СПРАВЕДЛИВОСТЬ И ГЛОБАЛЬНОЕ ПАРТНЕРСТВО С ТОЧКИ ЗРЕНИЯ АЗЕРБАЙДЖАНА

**Азиз Алиев**
*Институт Философии и Социологии НАНА, Баку, Азербайджан*
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** В статье исследуются новые этические принципы международной климатической политики. Особое внимание уделяется концепциям климатической справедливости и глобального партнерства, а также этике распределения ресурсов между развитыми и развивающимися странами. Отмечена важность предоставления развитыми странами большей финансовой и технологической поддержки.
**Ключевые слова:** Климатическая справедливость, глобальное партнёрство, распределение ресурсов, этическая ответственность, международная климатическая политика.

## 1. Giriş

Son onillikdə qlobal iqlim dəyişikliyi, insanlığın qarşılaşdığı ən ciddi təhlükələrdən biri kimi beynəlxalq siyasətin gündəmində qalmağa davam edir. Bu kontekstdə beynəlxalq iqlim siyasəti yalnız texniki və maliyyə məsələlərindən ibarət deyil, həm də əxlaqi problemləri əhatə edir. Bu məqalədə beynəlxalq iqlim siyasətində yeni etik prinsiplər, ədalət və qlobal tərəfdaşlıq anlayışları araşdırılır.

***İqlim ədaləti və qlobal tərəfdaşlıq***

İqlim ədaləti konsepti xüsusilə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında resurs bölgüsünün ədalətliliyini vurğulayır. Fite [2] qeyd edir ki, inkişaf etmiş ölkələrin tarixən yaratdığı emmissiyalar inkişaf etməkdə olan ölkələrin mübarizə qabiliyyətini azaldıb və onlara adaptasiya və azaldıcı tədbirləri həyata keçirmək üçün daha çox dəstək verilməlidir. İnkişaf etməkdə olan ölkələrin azaldıcı tədbirləri icra etmək və özlərini iqlim dəyişikliklərinin nəticələrindən qorumaq imkanları məhduddur və bu ölkələrdə beynəlxalq maliyyə yardımı xüsusi əhəmiyyət kəsb edir.

Rickman və digər müəlliflər [19] qeyd edirlər ki, beynəlxalq iqlim maliyyəsi axınlarının qeyri-bərabər paylanması etik narahatlıqları gündəmə gətirir. İnkişaf etmiş ölkələrin iqlim dəyişikliyi ilə mübarizədə maliyyə və texnoloji dəstək verməsi zəruridir. Bununla belə, bir çox hallarda, inkişaf etməkdə olan ölkələr bu dəstəkdən qeyri-adekvat şəkildə faydalanır. Belə hallar ədalət və bərabərlik prinsiplərinə ziddir [13].




Qrafik təhlilimizdən göründüyü kimi, iqlim maliyyəsinin coğrafi paylanmasının dinamikasında Şərqi Asiya, Sakit Okean, ABŞ, Kanada və Qərbi Avropa ümumi maliyyənin 84%-ə sahib olmaqla çoxluq təşkil edir. Bundan əlavə, Çin qlobal daxili iqlim maliyyəsinin yarıdan çoxunu demək olar ki, hər il səfərbər edir. Digər regionlar, ən az inkişaf etmiş ölkələr, əhəmiyyətli dərəcədə az vəsait əldə ediblər. Təsvir edildiyi kimi, iqlim problemlərinə ayrılan maliyyə 2019/2020-ci illərdə təqribən 653 milyard ABŞ dolları imiş, 2021/2022-ci illərdə isə təxminən 1,3 trilyon ABŞ dollarına qədər əhəmiyyətli artım olub [13].




***Beynəlxalq siyasətdə ədalət etikası***

İqlim siyasətində bərabərlik və ədalət problemləri tez-tez siyasi müzakirələrin əsasını təşkil edir. Kverndokk [17] iqlim siyasətindəki bərabərliklə bağlı narahatlıqların, xüsusilə zəngin ölkələrin yoxsul ölkələrə maliyyə transferləri vasitəsilə dəstək vermə öhdəliyinin vurğulandığını bildirir. İnkişaf etmiş ölkələrin iqlim dəyişikliyinin azaldılmasında tarixən əsas məsuliyyət daşıdığı qəbul edilir, buna görə də bu ölkələr öz məsuliyyətlərini inkişaf etməkdə olan ölkələrlə paylaşmalıdır.

Hickey [4] etik nəticələrin yalnız emissiyaların məhdudlaşdırılması deyil, həm də tarixi ədalətsizlikləri aradan qaldırmaq üçün ədalətli resurs bölgüsünü əhatə etməsi vacibliyini vurğulayır. Bu çərçivədə, inkişaf etmiş ölkələr həm iqlim maliyyəsi, həm də texnoloji biliklər baxımından inkişaf etməkdə olan ölkələrə yardım etməlidir.

***İqlim dəyişikliklərinə qarşı qlobal tərəfdaşlıq***

Əlbəttə, qlobal tərəfdaşlıq anlayışının fəlsəfi - əxlaqi əsaslarını siyasi və hüquqi qüvvəyə yükləməyə çalışsaq da, hazırda konkret nəticələrə diqqət yetirəndə böyük probemlərin üzə çıxdığını görürük.

Qlobal Karbon Layihəsi tərəfindən dərc edilən ölkələr üzrə məlumata görə qlobal $CO_2$ emissiyalarının faizləri aşağıdakı kimidir:

- **Çin:** qlobal emissiyaların 28%-i;
- **ABŞ:** qlobal emissiyaların 15%-i;
- **Avropa Birliyi:** qlobal emissiyaların 9%-i;
- **Hindistan:** qlobal emissiyaların 7%-i;
- **Rusiya:** qlobal emissiyaların 5%-i.

Bu faizlər hər bir ölkənin qlobal $CO_2$ emissiyalarına nisbi təsirini göstərir və Çini ən böyük emissiya edən ölkə kimi vurğulayır, ondan sonra ABŞ, Aİ, Hindistan və Rusiya gəlir [6].




Bu sahədə ümidləri azaldan digər verilənlərə əsasən, Qlobal Karbon Layihəsi elmi qrupunun yeni araşdırmasına görə, qalıq yanacaqlardan əmələ gələn qlobal karbon emissiyaları 2024-cü ildə rekord həddə çatıb.

Rəqəmlərlə ifadə etsək, 2024-cü ildə qlobal fosil yanacaqdan qaynaqlanan karbon dioksid ($CO_2$) emissiyalarının 37,4 milyard tona çatması və bunun 2023-cü illə müqayisədə 0,8% artması, iqlim dəyişikliyinin mənfi təsirlərinin daha da güclənəcəyini göstərir. Bu artımın dünya üçün əsas mənfi nəticələri isə tutqun gələcəyin aydın ifadəsinə çevrilir:

- Qlobal istiləşmənin sürətlənməsi;
- Dəniz səviyyəsinin yüksəlməsi;
- Ekosistemlərin pozulması;
- İnsan sağlamlığına təsirlər;
- İqtisadi itkilər.

Mənfi nəticələr üzrə istiqamətlərin təhlilinə görə belə deməyə əsas yaranır ki, quraqlıqların, daşqınların, fırıtınaların artımı, sahil bölgələrində yerləşən şəhərlərin su altında qalması, ekosistem və biomüxtəlifliyin dəyişməsi nəticəsində qida zəncirinin pozulması, stress və tənəffüs xəstəliklərinin artması, kənd təsərrüfatı, balıqçılıq və turizm sahəsində itkilərin baş verməsinin mütləq şəkildə hərbi-siyasi nəticələr doğurması qaçılmazdır. Deməli, emissiyaların artımı davam etdikcə proses qlobal siyasi toqquşmalara, qarşıdurmalara, yeni müharibələrə aparacaqdır.

İndi isə iqlim dəyişikliklərinə qarşı qlobal tərəfdaşlığın nəzəri izahına baxaq: Qlobal tərəfdaşlıq konsepti yalnız maliyyə yardımı ilə məhdudlaşmamalıdır. Zhu [22] qeyd edir ki, BASIC ölkələrinin (Braziliya, Cənubi Afrika, Hindistan və Çin) yüksəlişi ilə qlobal iqlim idarəçiliyi etik baxışları dəyişdirir. BASIC ölkələri iqlim dəyişikliyi siyasətlərində daha güclü mövqe qazanaraq, inkişaf etmiş ölkələrdən bərabər tərəfdaşlıq tələb edir. Bu vəziyyət, xüsusən də ədalət və bərabərlik prinsiplərinə riayət olunmasının zəruriliyini artırır.

Rübbelke [9] qeyd edir ki, iqlim siyasətində bərabərlik və ədalət, inkişaf etməkdə olan ölkələrə adaptasiya və azaldıcı tədbirlər üçün dəstəyin verilməsi baxımından qlobal əməkdaşlıq imkanlarını gücləndirir. Bu nöqteyi-nəzərdən, beynəlxalq iqlim siyasətində tərəfdaşlıq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında daha güclü əlaqələrin qurulmasına xidmət etməlidir.

Beynəlxalq iqlim siyasətində ədalət və qlobal tərəfdaşlıq anlayışları hər zamankından daha çox aktuallıq kəsb edir. İnkişaf etmiş ölkələr tarixən yaratdıqları emissiyaların nəticələrinə görə etik məsuliyyət daşıyır və inkişaf etməkdə olan ölkələrə həm maliyyə, həm də texnoloji dəstək verməlidir. Qlobal tərəfdaşlıq isə bu ölkələr arasında daha ədalətli resurs bölgüsünü təmin etməklə yanaşı, gələcək nəsillərin daha təhlükəsiz və yaşana bilən bir planetə sahib olmasına xidmət edəcəkdir.

## 2. Beynəlxalq sənədlərdə, rəy sorğularında və rəy liderlərinin konseptlərində iqlim məsələləri

Beynəlxalq iqlim dəyişikliklərinə qarşı mübarizədə yeni etika mövzusunda ədalət və qlobal tərəfdaşlıq anlayışlarının beynəlxalq müqavilələr, ictimai rəy sorğuları və regional siyasətçilərlə müsahibələr üzrə real mənbələrdə təsnifatını tapmaq mümkündür.

Belə ki, ilk olaraq beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli müqavilələrdən sayılan Paris İqlim Sazişi bəyan edir ki, Qlobal Ədalət emissiyaların azaldılmasında ədalətliliyə dair götürülən öhdəliklərdə özünü göstərir və ölkələr arasında diferensiallaşdırılmış məsuliyyətləri qəbul etmək də bu sırada yerini alır.

İnkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə birgə iqlim fəaliyyətinə, potensialın yaradılmasına və maliyyə dəstəyinə diqqət yetirilməsi isə birbaşa özündə qlobal tərəfdaşlıq anlayışını ehtiva edir. Davamlı inkişaf üçün əsas hesab edilən bərabərlik və digər oxşar hüquqlara dair prinsiplərin mövcudluğu etika üçün vacib əsaslar yaradır [10].

Kyoto Protokolunda [11] isə Ədalət anlayışına aid göstərilir ki, "inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin emissiyaların azaldılması üçün müxtəlif imkanlara və öhdəliklərə malik olduğunu qəbul edərək, "ümumi, lakin fərqli məsuliyyətlər" üzərində qurulub". Protokol Qlobal Tərəfdaşlıq üçün "Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün texnologiya transferi və maliyyə yardımı da daxil olmaqla ölkələr arasında əməkdaşlıq fəaliyyətini təşviq edir" - yanaşmasına istinad edir. Protokol iqtisadi artımı ətraf mühitin qorunması ilə balanslaşdırmağa yönəlmiş ədalətliliyi və davamlı inkişafı Etika məsələsi kimi vurğulayır.

Beynəlxalq müqavilələrlə yanaşı ictimai rəy sorğularında müasir etik baxışlar tədqiq edilir. "Pew Research Center" tərəfindən icra olunan "Qlobal İqlim Dəyişikliyinə Yanaşmalar

Sorğusu"nda məsuliyyət bölgüsü və ölkələr arasında iqlim fəaliyyətinə dair gözləntilərin ədalətliliyi ilə bağlı suallar vasitəsilə ədalət və qlobal tərəfdaşlıq mövzularına toxunur. Suallardan biri respondentlərin ədalətli töhfələr üçün çağırışı vurğulayaraq, yüksək emissiyaya malik ölkələrin iqlim problemlərini həll etmək üçün daha çox şey etməli olub-olmadığını qiymətləndirir. Bundan əlavə, o, qlobal etik məsuliyyəti vurğulayaraq, iqlim dəyişikliyi ilə bağlı beynəlxalq əməkdaşlığa ictimaiyyətin dəstəyini araşdırır [14].

İqlim Dəyişikliyi üzrə Avropa İttifaqı Sorğusunda isə göstərilir ki, iqlim dəyişikliyi ilə mübarizədə kollektiv məsuliyyətə ehtiyac haqqında müzakirələr əsas götürülür. O, vətəndaşların iqlim təşəbbüslərinin dəstəklənməsində, ekoloji siyasətlərdə ədalətin təşviqində və effektiv fəaliyyət üçün hökumətlər, icmalar arasında tərəfdaşlığın təşviqində rolunu vurğulayır. Əsas diqqət davamlılıq üçün etik imperativlərə uyğunlaşaraq, iqlim problemlərinə ədalətli yanaşmalara yönəlib [5].

İqlim dəyişiklikləri ilə mübarizədə fikir və rəy liderləri, eyni zamanda dövlətlər üzrə əsas səlahiyyət sahibləri və təsir imkanları olan şəxslərin yanaşmaları problemin mahiyyətini daha çox açmağa yardım edir. Afrika ölkələrindən iqlim siyasəti üzrə liderlərlə müsahibələr, inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə bağlı prioritetlərini və ehtiyaclarını izah edir. Bu müsahibələr ədalət prinsipini dərinləşdirmək üçün əhəmiyyətlidir. Məsələn, UNFCCC İcra katibi Simon Stiell 2024-cü ilin iyununda Almaniyanın Bonn şəhərində iqlim danışıqlarında etdiyi çıxışında o, Afrikaya əhəmiyyətli sərmayə qoyuluşu çağırışından bəhs edilir və iqlim problemlərinin həlli üçün qlobal tərəfdaşlıqların zəruriliyi vurğulanır. O, iqlimin maliyyələşdirilməsində ədalətin vacibliyini vurğulayır, inkişaf etməkdə olan ölkələr üçün resurslara bərabər çıxışı müdafiə edir. İnvestisiyada yeni etikaya təkan vermək davamlı inkişaf və iqlim dəyişikliyinə qarşı dayanıqlılığa sadiqliyi əks etdirir [12].

COP29 kimi mühüm qlobal iqlim tədbirinə ev sahibliyi edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev də Bakıda keçirilən COP öncəsi tədbir iştirakçılarına müraciətində O, Azərbaycanın qlobal tərəfdaşlıq və bərabərhüquqlu əməkdaşlıq vasitəsilə iqlim dəyişikliyi probleminin həllinə sadiqliyini vurğulamışdır. O, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün resurslara ədalətli çıxışı müdafiə edərək, iqlim təşəbbüslərində ədalətin vacibliyini müzakirə etmişdir. İqlim problemlərinə qarşı mübarizədə kollektiv məsuliyyəti prioritetləşdirən davamlı təcrübələrə keçidi tələb edən yeni etika konsepsiyasını vurğulayır. Bu yanaşma davamlılığı və davamlı inkişafı təşviq etmək üçün beynəlxalq əməkdaşlığa və birgə səylərə ehtiyacı gücləndirir.

BMT-nin Baş katibi Antonio Quterreş COP29 çərçivəsində İnkişaf Etməkdə olan Kiçik Ada Dövlətlərin (SIDS) iqlim dəyişmələrinə həsr olunmuş Liderlər Sammitində deyib ki, G20 ölkələri dünyadakı emissiyaların 80 faizinin yaranmasına cavabdehdir. Sizin qəzəbli olmağa tam haqqınız çatır, mən də qəzəbliyəm. Çünki baş verən bu ədalətsizlik dənizlərin səviyyəsinin yüksəlməsi nəticəsində sizin adaların gələcəyini təhlükə altına alır, sakinlər təbii fəlakətlərdən əziyyət çəkir, iqtisadiyyata böyük zərbə dəyir. Bu ədalətsizliyə son qoyulmalıdır [8].

## 3. Beynəlxalq iqlim dəyişikliklərinə qarşı mübarizədə ədalət və etika

İqlim dəyişikliyi problemləri qlobal ədalət və etik məsələlərlə sıx bağlıdır. Qlobal miqyasda aparılan tədqiqatlar iqlim ədalətinin, xüsusən də qlobal şimal və cənub ölkələri arasında qeyri-bərabər təsirlərə malik olduğunu ortaya qoyur. İqlim dəyişikliyindən ən çox təsirlənən ölkələr, adətən, iqlim dəyişikliyinə daha az səbəb olan dövlətlərdir, lakin onların bu prosesdən əziyyət çəkməsi ədalətsizlik kimi qiymətləndirilir. Dünyanın ən kasıb 10 ölkəsindən 9-u Afrikada olması bunun bariz sübutudur.

Məsələn, Wallimann-Helmer [21] və başqalarının yazdığı "Qlobal İqlim Dəyişikliyinin İdarə Edilməsində Ədalət" adlı kitabda qeyd edilir ki, iqlim dəyişikliyi ilə bağlı qərar qəbulunda iştirak edən bütün tərəflər arasında ədalətli resurs bölgüsü təmin olunmalıdır. Burada inkişaf etmiş ölkələrin tarixən daha çox karbon emissiyasına səbəb olduğu nəzərə alınmalı və bu ölkələr iqlim dəyişikliyinə qarşı mübarizədə daha çox məsuliyyət götürməlidirlər.

Başqa bir tədqiqatda, Sandeep Sengupta iqlim dəyişikliyi məsələsinin beynəlxalq ədalət prinsipləri ilə necə həll olunmasının vacibliyini vurğulayır. Sengupta [20] bildirir ki, qlobal nizamın bərpası və iqlim dəyişikliyinin təsirlərinin azaldılması üçün yalnız iqtisadi və texnoloji həllər kifayət deyil; beynəlxalq etik standartlar da müəyyən edilməlidir.

Bourban [1] öz kitabında qlobal iqlim siyasətində ədalətin təşviq olunmasını müzakirə edir və qeyd edir ki, ədalətli iqlim siyasəti beynəlxalq razılaşmalara, eləcə də regional siyasətçilərin etik davranışlarına əsaslanmalıdır.

Bu cür etik yanaşmalar yalnız qlobal siyasətdə deyil, həm də qlobal ictimai rəydə də əks olunur. Harris [3] öz əsərində iqlim dəyişikliyinə qarşı mübarizədə dünya etikası anlayışını inkişaf etdirir və iqlim ədalətini qlobal bir fenomen kimi təqdim edir. Harris, beynəlxalq ictimai rəy sorğularının nəticələrinə əsaslanaraq, fərqli ölkələrin vətəndaşlarının bu mövzuya müxtəlif yanaşmalarını izah edir.

Bu araşdırmalar göstərir ki, beynəlxalq ictimaiyyət qlobal iqlim dəyişikliyi məsələsinə daha geniş etik baxışlarla yanaşmalı, ədalət prinsiplərini bərqərar etməli və daha güclü qlobal tərəfdaşlıq yaratmalıdır.

***Azərbaycanda iqlim problemlərinə dair ictimai rəy***

Yerli ictimai rəy sorğusu üçün hazırladığımız sualları mövzunun əhatə etdiyi etik prinsipləri, iqlim dəyişikliklərinə qarşı münasibətləri və qlobal tərəfdaşlıq anlayışını dərinləşdirməyə kömək edən yanaşmaları nəzərə alaraq tərtib etdik.


Response Percentage for '1. To what extent do you think climate change is affecting our country?'
Percentage (%)
0
10
20
30
40
50
A) Very much
B) Moderately
C) Little
Response Options


Response Percentage for '2. Do you think our government is taking enough measures to combat climate change?'
Percentage (%)
0
10
20
30
A) Yes
B) No
C) Have not encountered this issue
Response Options


Response Percentage for '3. How important do you think global partnerships are in addressing climate change?'
Percentage (%)
0
20
40
60
80
A) Very important
B) Moderately important
C) Not important
Response Options


Response Percentage for '4. Questions on Justice and Equality: Do you think the distribution of resources between developed and developing countries in the fight against climate change is fair?'
Percentage (%)
0
10
20
30
40
50
A) Yes
B) No
C) I don't know
Response Options


Response Percentage for '5. Do you think equality in climate policy should be ensured between developed and developing countries?'
Percentage (%)
0
20
40
60
A) Yes, it should be fully ensured
B) It should be partially ensured
C) It is not necessary
Response Options


Response Percentage for '6. National Climate Policy and Global Partnership: Do you think Azerbaijan is cooperating enough with international organizations in the fight against climate change?'
Percentage (%)
0
10
20
30
40
50
60
A) Yes
B) No
C) I don't know
Response Options


Response Percentage for '7. Is it beneficial for our country to join international climate agreements and build global partnerships?'
Percentage (%)
0
50
A) Yes, it is very beneficial
B) It is beneficial, but there are some limitations
C) No, it is not beneficial
Response Options


Response Percentage for '8. To what extent do you think our country's position in the international arena regarding climate change is strong?'
Percentage (%)
0
10
20
30
40
50
60
A) Very strong
B) Moderately strong
C) Weak
Response Options


Response Percentage for '9. Personal Opinions:Do you think developing countries should receive more financial and technological support to combat climate change?'
Percentage (%)
0
20
40
60
80
A) Yes
B) No
C) I don't know
Response Options


Response Percentage for '10. In which areas should developing countries like Azerbaijan receive more support in the fight against global climate change?'
Percentage (%)
0
10
20
30
40
A) Energy efficiency
B) Agriculture
C) Industry
D) Technology and innovation
E) Other (please specify)
Response Options




Ümumi təhlillər göstərir ki, qeydə alınmış bütün diaqramlar üzrə sorğu nəticələri dünyada keçirilmiş müəyyən etibarlı tədqiqat nəticələri ilə eynidir və qlobal dünyada qəbul edilmiş elmi metodlogiyaya əsaslanır:

Ümumi müşahidədə beynəlxalq əməkdaşlığın iqlim təşəbbüslərindəki əhəmiyyəti və inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında bərabər resurs bölgüsünün təmin edilməsi məsələsində əhəmiyyətli razılıq mövcuddur.

Cavabların böyük bir hissəsi iqlim dəyişikliyi ilə mübarizədə hökumət tədbirlərinin kifayət qədər olmadığını göstərir. Bu nəticə digər ölkələrdə də müşahidə olunan ümumi tendensiya ilə üst-üstə düşür. BMT İnkişaf Proqramının 2021-ci il hesabatına əsasən, insanların 80%-i hökumətlərindən iqlim dəyişikliyi ilə daha ciddi mübarizə aparmağı tələb edir (UNDP, 2021).

Cavab verənlərin çoxu beynəlxalq iqlim razılaşmalarına qoşulmağın faydaları barədə şübhələrini ifadə edir. Bu, bu cür tərəfdaşlıqlardan birbaşa və gözlə görülən nəticələrə ehtiyac olduğunu göstərə bilər. Bu baxış, inkişaf etməkdə olan bölgələrdə də geniş yayılmışdır (Pew Research Center, 2023).

İnkişaf etməkdə olan ölkələr, o cümlədən Azərbaycan üçün daha çox texnoloji və maliyyə dəstəyinə ehtiyac olduğu barədə geniş razılıq mövcuddur. Bu yanaşma, davamlı inkişafın zəngin ölkələrin texnoloji dəstəyindən asılı olduğunu göstərən geniş tədqiqatlarla üst-üstə düşür (Dünya Bankı, 2022).

**Nəticə.** Məqalə həm qlobal, həm də yerli narahatlıqları iqlim siyasətinin effektivliyi, beynəlxalq əməkdaşlığın vacibliyi və iqlim reaksiyası imkanlarındakı fərqləri aradan qaldırmaq üçün dəstəyin zəruriliyi kimi məsələləri əks etdirir. Bundan başqa məqalədə iqlim dəyişikliyi siyasətində ədalət anlayışının yeni etik prinsiplərlə əlaqəsini araşdırır. Xüsusilə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı resurs bölgüsünün etikliyi və qlobal tərəfdaşlıq mövzularında yerli ictimaiyyətin mövqeyi öyrənilir.

İctimai rəy sorğusu ilə yerli vətəndaşların iqlim siyasətində etik prinsiplərə dair baxışlarını öyrənmək mümkün olur. Müsahibələr və elmi təhlillər sorğunun nəticələrini zənginləşdirərək, qlobal tərəfdaşlıq anlayışını inkişaf etdirməyə imkan yaradır.

Nəticədə, bu sorğular etik və ədalət məsələlərinin yerli ictimaiyyət tərəfindən necə dəyərləndirildiyini göstərərək, beynəlxalq iqlim siyasətinə daha geniş töhfə verə bilər.

Araşdırmalar göstərir ki, “Beynəlxalq İqlim Dəyişikliklərinə Qarşı Mübarizədə Yeni Etika: Ədalət və Qlobal Tərəfdaşlıq” mövzusu qlobal iqlim dəyişikliyi ilə mübarizə sahəsində aktualdır, lakin bu spesifik yanaşma dünyada geniş şəkildə tədqiq olunmayıb. Bu mövzu fərqli yanaşma və kontekstlərdə müzakirə edilsə də, işin fərqliliyi bir neçə unikal məqamda özünü göstərir:

- Yeni etikanın tətbiqi;
- Ədalət konsepsiyasının yenidən şərhi;
- Qlobal tərəfdaşlıqda bərabərlik və resursların paylanması;
- Real müsahibələr və regional yanaşmalar;
- Multikultural yanaşma.

## Ədəbiyyat

1. Bourban M. (2021), Promoting justice in global climate policies. In The Routledge Handbook of the Political Economy of the Environment, 226-242. Routledge.
2. Fite M.D. (2018), The international responsibilities of developed countries in adaptation to and mitigation of climate change: An ethical mandate. BRICS Law Journal.
3. Harris P.G. (2010), World Ethics and Climate Change: From International to Global Justice. Edinburgh University Press.
4. Hickey C. (2023), Climate change, distributive justice and “pre-institutional” limits on resource appropriation. European Journal of Philosophy, Vol.29, No.1, 215-235.
5. https://climate.ec.europa.eu/citizens/citizen-support-climate-action_en (Citizen support for climate action, 2023)
6. https://globalcarbonbudget.org/ (The critical annual update revealing the latest trends in global carbon emissions, 2024)
7. https://live.worldbank.org/en/series/2024/cop29?intcid=ecr_hp_headerA_2024-11-11-COP29WBL (World Bank Group at COP29, 2024)
8. https://news.un.org/en/story/2024/11/1156886 (COP29 climate talks: Major emitters must right ‘colossal injustice’ on island nations, says UN chief, 2024)
9. https://president.az/en/articles/view/67061 (To the participants of the Pre-COP29, 2024)
10. https://unfccc.int/process-and-meetings/the-paris-agreement (The Paris What is the Paris Agreement?)
11. https://unfccc.int/resource/docs/convkp/kpeng.pdf (Kyoto protocol to the united nations framework convention on climate change, 1998)
12. https://www.climatechangenews.com/2024/09/05/un-climate-chief-calls-for-exponential-changes-to-boost-investment-in-africa/ (UN climate chief calls for “exponential changes” to boost investment in Africa, 2024 )
13. https://www.climatepolicyinitiative.org/publication/global-landscape-of-climate-finance-2023/ (Global Landscape of Climate Finance 2023)

14. https://www.climatepolicyinitiative.org/publication/global-landscape-of-climate-finance-2023/ (Global Landscape of Climate Finance 2023)
15. https://www.pewresearch.org/global/2022/08/31/climate-change-remains-top-global-threat-across-19-country-survey/ (Climate Change Remains Top Global Threat Across 19-Country Survey, 2022)
16. https://www.pewresearch.org/science/2024/11/14/public-trust-in-scientists-and-views-on-their-role-in-policymaking/ (Public Trust in Scientists and Views on Their Role in Policymaking, 2024)
17. https://www.undp.org/press-releases/80-percent-people-globally-want-stronger-climate-action-governments-according-un-development-programme-survey (80 percent of people globally want stronger climate action by governments according to UN Development Programme survey, 2024)
18. Kverndokk S. (2018), Climate policies, distributional effects and transfers between rich and poor countries. International Review of Environmental and Resource Economics, Vol.12, No.(2-3), 129-176.
19. Rickman J., Kothari S., Larosa F., Ameli N. (2022), The unequal distribution of international climate finance flows and its underlying drivers. Research Square.
20. Rübbelke D.T.G. (2011), International support of climate change policies in developing countries: Strategic, moral and fairness aspects. Ecological Economics, Vol.70, No.8, 1470-1480.
21. Sengupta S. (2023), Climate change, international justice and global order. International Affairs, Vol.99, No.1, 121-140.
22. Wallimann-Helmer I. (2019), Justice in managing global climate change. In Managing Global Warming, 751-768. Academic Press.
23. Zhu X. (2013), International ethics and governance for climate change amid the rise of BASIC countries. International Social Science Journal, Vol.64, No.211, 55-74.